8 ildir, xidmətinizdəyik!

mhm tədris mərkəzi

# AZƏRBAYCAN DİLİ SINAQ TOPLUSU

(Abituriyentlərin buraxılış imtahanı üçün)



I NƏŞR

Yalnız holoqramlı kitabları alın.

075249

2023–2024

Ramal Nuruyev
Aybəniz İmanzadə

35 ədəd sınaq

DİM qəbul proqramına uyğun hazırlanmışdır.

**RAMAL NURUYEV**
**AYBƏNİZ İMANZADƏ**

# AZƏRBAYCAN DİLİ SINAQ TOPLUSU

**(Abituriyentlərin buraxılış imtahanı üçün)**

**BAKI-2023-2024**

# Ön söz

## Hörmətli müəllimlər! Əziz abituriyentlər!

Sizə təqdim etdiyimiz **"AZƏRBAYCAN DİLİ SINAQ TOPLUSU"** kitabımız buraxılış imtahanlarına hazırlaşan abituriyentlər üçün nəzərdə tutulmuşdur. Bu kitabda proqram üzrə istifadə edilən bütün mövzuları əhatə edən və zövqünüzü oxşayacaq qrammatika sualları, mətnlər, ümumilikdə 1000-dən çox test tapşırığı verilmişdir. Kitabımızın əsas üstünlüyü ondan ibarətdir ki, burada istifadə olunan test tapşırıqları Dövlət İmtahan Mərkəzinin proqramını tam əhatə edir və sualların hər biri məhz DİM-in buraxılış imtahanı səviyyəsinə uyğundur. İmtahanda uğurlu nəticə əldə etmək üçün bu kitab əvəzolunmaz bir vəsaitdir.

Kitabın ərsəyə gəlməsində, redaktə edilməsi və diqqətdən yayınan səhvlərin düzəldilməsində xüsusi əməyi olan **İsmayıl Hüseynova** təşəkkür edirik.

Kitabla bağlı ətraflı məlumat almaq, rəy və təkliflərini bildirmək istəyənlər qeyd etdiyimiz nömrələrlə əlaqə saxlaya bilərlər.

**Ramal Nuruyev:** Mob: (050) 865 58 23

**MHM TƏDRİS MƏRKƏZİ** Mob: (077) 394 14 24

Hər birinizə uğurlar arzulayırıq !

**Müəllif Hüquqları**

Kitabın elektron və ya mexaniki yollarla surətinin çıxarılaraq yayılması, fayl şəklində internet portallarında və ya sosial şəbəkələrdə paylaşılması qanunla **QADAĞANDIR.**

## İÇİNDƏKİLƏR

Fonetika. Sınaq-1 ---------------------------------------------------------------------------------------6

Leksikologiya. Sınaq-2 -----------------------------------------------------------------------------11

İsim. Sınaq-3 -------------------------------------------------------------------------------------------16

Sifət. Sınaq-4 -------------------------------------------------------------------------------------------21

Say. Sınaq-5 ---------------------------------------------------------------------------------------------26

Əvəzlik. Sınaq-6 ----------------------------------------------------------------------------------------30

Feil. Sınaq-7 ---------------------------------------------------------------------------------------------35

Zərf. Sınaq-8 --------------------------------------------------------------------------------------------39

Qoşma,bağlayıcı. Sınaq-9 -----------------------------------------------------------------------------44

Ədat,modal sözlər, nida. Sınaq-10--------------------------------------------------------------------49

Söz yaradıcılığı. Sınaq-11------------------------------------------------------------------------------54

Morfoloji təhlil Sınaq-12 ------------------------------------------------------------------------------58

Söz birləşmələri. Sınaq-13 ----------------------------------------------------------------------------63

Cümlənin məqsəd və intonasiyaya görə növləri. Sınaq-14 -------------------------------------68

Cümlənin baş üzvləri. Sınaq-15 ----------------------------------------------------------------------73

Cümlənin ikinci dərəcəli üzvləri. Sınaq-16---------------------------------------------------------78

Sintaktik təhlil. Sınaq-17 ------------------------------------------------------------------------------83

Cümlənin şəxsə görə növləri, sintaktik əlaqələr. Sınaq-18--------------------------------------88

Xitab, Ara sözlər. Sınaq-19 ----------------------------------------------------------------------------94

Əlavələr, həmcins üzvlər. Sınaq-20 ----------------------------------------------------------------100

Tabesiz mürəkkəb cümlə. Sınaq-21 ----------------------------------------------------------------106

Tabeli mürəkkəb cümlə. Sınaq-22 ------------------------------------------------------------------111

Azərbaycan ədəbi dilinin normaları. Sınaq-23 ---------------------------------------------------116

Üslubiyyat. Sınaq 24 ----------------------------------------------------------------------------------121

Vasitəli vasitəsiz nitq, durğu işarələri. Sınaq 25 -------------------------------------------------126

Ümumi sınaq. Sınaq 26 -------------------------------------------------------------------------------131

Ümumi sınaq. Sınaq 27 -------------------------------------------------------------------------------136

Ümumi sınaq. Sınaq 28 -------------------------------------------------------------------------------141

Ümumi sınaq. Sınaq 29 ------------------------------------------------------------------------------146
Ümumi sınaq. Sınaq 30 ------------------------------------------------------------------------------151
Ümumi sınaq. Sınaq 31 ------------------------------------------------------------------------------156
Ümumi sınaq. Sınaq 32 ------------------------------------------------------------------------------161
Ümumi sınaq. Sınaq 33 ------------------------------------------------------------------------------165
Ümumi sınaq. Sınaq 34 ------------------------------------------------------------------------------170
Ümumi sınaq. Sınaq 35 ------------------------------------------------------------------------------175
Cavablar ---------------------------------------------------------------------------------------------180

## Leksikologiya
## Sınaq 2.

**1**.Hansı sözün leksik mənası **düzgün** verilməmişdir?
A) Kabotaj-Hər hansı dövlətin bir dənizdəki sahilboyu gəmiçiliyi
B) Notarius-Müxtəlif sənədləri təsdiq etmə vəzifəsi daşıyan rəsmi şəxs
C) Ellipsis-Cümlədə asanlıqla anlaşılan sözün buraxılmasından ibarət vitorik üsul
D) Abituriyent-Ali və ya orta ixtisas məktəbinə daxil olmaq istəyən şəxs
E) Abstrakt-Konkret varlıqla əlaqəsi olan

**2**. **Doğru** fikri seçin.
A) Antonimlər müxtəlif qrammatik mənaları ifadə edə bilər.
B) Antonimlik yalnız bütün əsas nitq hissələrində müşahidə oluna bilir.
C) *"Duzlu"* və *"duzsuz"* sözlərində leksik şəkilçi var deyə antonim hesab edilmir.
D) Antonimin tərəfləri eyni nitq hissəsinə aid olsa da, tərəfləri quruluşca fərqli ola bilər.
E) Məcazi mənada olan sözlər sabit söz birləşməsidir.

**3**. Cədvələ əsasən **uyğunsuzluğu** müəyyən edin.

| | **Fikir** | **Hökm** |
|---|---|---|
| A) | Məşhur və tanınmış sözləri sinonimdir. | Yanlış |
| B) | *"Ürəyi yanmaq"* ifadəsi omonim frazoloji birləşmədir. | Doğru |
| C) | Bəzi sinonimlər bütün məqamlarda bir-birini əvəz edə bilir. | Doğru |
| D) | Omonimlərin məna tayları mütləq eyni nitq hissəsinə aid olmamalıdır. | Doğru |
| E) | Feli bağlama şəkilçilərindən bəziləri bir-birinin antonimi və sinonimi ola bilər. | Yanlış |

**4.** *"Işə düşmək"* və *"yola düşmək"* ifadələrinə əsasən Eyler-Venn diaqramında sual işarəsi qoyulan yerə yazıla biləcək fikri seçin.




A) Hər iki frazoloji birləşmə ancaq məcazi mənada işlənir.
B) Hər ikisi həm həqiqi, həm də məcazi mənada işlənə bilir.
C) Hər ikisinin tərəfləri həm birlikdə, həm də ayrı-ayrılıqda cümlə üzvü ola bilər.
D) Hər ikisi yalnız frazoloji birləşmə daxilində omonim ola bilir.
E) Hər ikisi söz birləşməsinin növüdür.

**5.** Terminlərin xarakterik xüsusiyyətlərinə aiddir.
1. Həmişə sinonimliyinin olması
2. Söz yaratma qabiliyyətinin olmaması
3. Milli və alınma mənşəli ola bilirlər.
4. Ancaq elmi üslubda işlənə bilir.
5.Yığcam və konkret olması
A) 3,5 B) 2,5 C) 3,4 D) 4,5 E) 1,3

**6**.**Doğru** fikri seçin.
A) Eyni kökdən düzələn yaxınmənalı sözlər sinonimdir.
B) Çoxmənalı sözlərin və omonimlərin məna taylarından biri mütləq məcazi olmalıdır.
C) *"Qazan", "qovaq", "bulamaq"* sözlərinin omonimləri var.
D) Bütün qrammatik mənası olan sözlərin həm də leksik mənası var.
E) İzahlı lüğətlərdə sözlərin qrammatik mənası izah olunur.

**7**. Omonimlər cərgəsini seçin.
A) şor, kürək, alışmaq
B) rəng, mina, en
C) bənd, sənəd, keçinmək
D) uçmaq, zümrüd, tut
E) qız, qaz, dimdik

**10.** Xüsusi isimlə başlayan cümləni müəyyən edin.
A) Qorxmaz igidlərə arxalanırdı.
B) Əziz valideyinlər, hamınızı xoş gördük!
C) Yer ayaqlarının altından qaçırdı.
D) Sevil, sev hər zaman, əziz balam.
E) Hikmət bütün hadisələrin təcəllisidir.

**Hər şeyin bir vaxtı var**.

Keçmiş zamanlarda bir Çin ailəsində hər kəsin özünə məxsus vacib işləri var idi. Bu işlər düzgün aparıldıqda hər şey yaxşı gedirdi.

Bir gün qoca hökümdar Cənnəti uzaq diyarlara iş dalınca göndərir. Cənnət getməzdən əvvəl öz vəzifəsini anansına tapşıraraq deyir:
-Mən üç gün uzaqda olacağam. İndi yer üzündəki işləri həll etmək sizin ixtiyarınızdadır. Sadəcə unutmayın ki, sizə lazım olan tək şey insanların söylədiklərini, eşitdiyiniz arzuları yerinə yetirməkdir.
Cənnətin qoca anası məmnuniyyətlə razılaşdı:
-Nə xoş bir tapşırıq var, dedi.

O fikirləşdi və bununla da saraydan çıxdı, bir buludun üstünə mindi və böyük bir çay görənə qədər yol getdi.
Elə bu vaxt qayıqda olan bir dənizçi başını qaldırıb dedi: - Kaş bir güclü külək olaydı. Onda mən istədiyim kimi üzə bilərdim!” Cənnətin qoca anası dərhal küləyin əsməsini əmr etdi və yoluna davam etdi.

Bir azdan o, böyük armud bağının yanından keçərkən kiminsə göylərə qışqırdığını eşitdi:
"Xahiş edirəm, bu dəhşətli küləyi dayandırın. Əgər əssə, bütün armudları yetişməmiş yerə yıxacaq ."

Bu hadisə qoca cənnət anası üçün çox **ağır** idi və o, sarayına qayıtdı. ***Ertəsi gün o, buluta mindi və əmrləri dinləmək üçün yola düşdülər.*** Tezliklə o, qoca bir fermerin dediyini eşitdi: "Bu gün yağış yağsın. Yağışla mən paxlalı toxumlarımı əkə bilərəm və onlar beləcə tez böyüyəcəklər". Beləliklə, qoca göy anası bütün gün yağması üçün şiddətli bir yağış yağdırdı, amma axşam evə qayıdarkən dərin bir ah-nalə səsi eşitdi: "kaş ki, hava aydınlaşsaydı! Bu yağış dayanmasa, qurutmağa çalışdığım bütün zəncəfillər bunun əvəzinə çürüyə bilər!" Cənnətin qoca anası çaşqınlıq içində qaldı və yenidən buludla sarayına qayıtdı.

Üçüncü gün qoca Cənnət anası çölə çıxmadan öz otağında qaldı. Nəhayət, oğlu ■səfərdən qayıtdı.Yaşlı ana baş verənlərə görə çox təəssüflənirdi.

"Mən başqa cür nə edə bilərdim?" ondan soruşdu.

-Həqiqətən, o qədər də çətin deyil,-deyə Cənnət mehribanlıqla cavab verdi. "Əslində hər şeyin yolunu öyrənəndə çox asandır. Sadəcə çaylar üzərində güclü külək, armudlara isə yumşaq külək göndərmək lazımdır. Gecələr yağış yağsın ki, lobya yetişsin və zəncəfil quruması üçün gündüz günəş parlayır. Göylərdə və yerdə hər şey qaydasına düşdüyündə, hər kəsin xoş arzuları gerçəkləşir."

Cənnətin qoca anası başa düşdü və bir daha gülümsədi: "Hər şeyin bir vaxtı varmış,-dedi,- kaş bütün bunları əvvəldən mənə danışardın!"

**11.** Mətndən götürülmüş hansı cümlədə mətnin üslubi xüsusiyyətlərinə xas olan ifadə işlənmişdir?
A) Keçmiş zamanlarda bir Çin ailəsində hər kəsin özünə məxsus vacib işləri var idi.
B) Bir gün qoca hökümdar Cənnəti uzaq diyarlara iş dalıyca göndərir.
C)İndi yer üzündəki işləri həll etmək sizin ixtiyarınızdadır.
D) Onda mən istədiyim kimi üzə bilərdim!”
E) Ertəsi gün o, buluda mindi və istəkləri dinləmək üçün yola düşdü.

**12.** Aşağıda verilmiş planları mətnin hissələrinə əsasən qruplaşdırın:
1. Giriş
2. Əsas
3. Nəticə
a.Cənnətin anasının hər şeyi dərk etməsi.
b.Çinli ailənin işləri.
c.Cənnətin anasının ikinci günü.
d.Cənnətin anası ilə dialoqu.
e.Cənnətin anasının fermerin arzularını reallaşdırması
A) 1–a ; 2–c,d,e ; 3–b.
B) 1–c ; 2–d,e ; 3–a.
C) 1–b ; 2–c,d,e ; 3–a.
D) 1–e; 2–b,d, ; 3–c.
E) 1–a,b ; 2–c,d, ; 3–e.

## Feil
## Sınaq 7.

**1.**Feili sifətin və məsdərin onlara aid **olmayan** xüsusiyyətlərinin işləndiyi cümlələri seçin.

1. Fateh yuxudan oyandıqdan sonra nənəsi ona yemək verdi.
2.Sürətlə qaçan atlar dərənin kənarında duruxdular.
3.Bütün gələcəkləri onların yaxşı oxumaqlarından asılı idi.
4.Dünəndən bəri körpələrdən xəbər almayan Sənubər Uşaqları küçədə oynayan gördü və sevindi.
5.Əhmədin doğum günü çiçəklər açanda, yaz gələndə idi.

A) 1,3,5 B) 2,4,5 C) 1,3,4 D) 2,3,4 E) 1,2,5

**2.** Aşağıda verilmiş hansı variantda feili iki şəkildə düşünmək **olar?**

A) Mələk işlərini bitirdikdən sonra evə gəlib körpələrinə baxırdı.
B) Bu gün Xankəndi şəhəri və ətraf ərazilər erməni terrorçularından təmizlənmişdir.
C) Samirə bunları bilməsə, həyat ona ağır sınaqlar hazırlaycaq.
D) Kitabı oxuyub bitirdikdən sonra yerdə qalan işlərimizə baxaq.
E) İsrarla çay istəyən körpəyə anası etinasız yanaşırdı.

**3.** Feilin zamanları ilə bağlı **doğru** fikri müəyyən edin.

| | | |
|---|---|---|
| A) | Şühudi keçmiş zamanda olan feillər bütün şəxslər üzrə şəxs sonluğu qəbul edir. | Doğru |
| B) | Nəqli keçmiş zamanda -mış[4] şəkilçili feillər bütün şəxslər üzrə şəxs sonluğu qəbul edir. | Yanlış |
| C) | İndiki zamanda olan feillər üçüncü şəxsin təkində şəxs sonluğu qəbul edir. | Doğru |
| D) | Qəti gələcək zamanda olan feillər bütün şəxslər üzrə şəxs sonluğu qəbul etmir. | Doğru |
| E) | Qeyri-qəti gələcək zamanda olan feillər bütün şəxslər üzrə şəxs sonluğu qəbul edir. | Yanlış |

**4.**Aşağıda verilmiş hansı variantdakı feillərin növünü dəqiq müəyyən etmək **mümkün deyil?**

A) Sulandı, atıldı, açıldı.
B) Gəzişdi, qaraldı, yazdırdı.
C) Əməl edildi, toplaşdı, süründü.
D) Yuyuldu, yuyundu, yudurdu.
E) Mələşdi, görüşdü, qaldırdı.

**5.**Doğru-yanlış cədvəlinə əsasən **uyğunluğu** müəyyən edin.

| Doğru | Yanlış |
|---|---|
| 1.Frazeoloji birləşmələrək adətən sadə feil mürəkkəb xəbər olur. | 3.Dilimizdə bitişik yazılan mürəkkəb feil yoxdur. |
| 2.”*Mən dünən Xocalıda oldum”* cümləsindəki feil quruluşca sadədir | 4. Tərkibi feillər və frazeoloji birləşmələr ayrı yazılır. |

A) 1,4 B) 2,3 C) 2,4 D) 1,3 E) 3,4

**6.“**-ma²” inkar şəkilçisinin xüsusiyyətləri sırasındda verilənlərdən **yanlış** olanını seçin.

A) “*Mən bir daha sizə gəlmərəm”* cümləsində **“**-ma²” inkar şəkilçisi vurğu qəbul etməyib.
B) **“**-ma²” inkar şəkilçisi qrammatikdir.
C) **“**-ma²” inkar şəkilçisindən sonra saitlə başlayan şəkilçi gəldikdə bitişdirici samit qəbul edir.
D) **“**-ma²” inkar şəkilçisi omonim şəkilçidir omonim tayı feillərdən isim və sifət yaradır.
E) **“**-ma²” inkar şəkilçisi özündən əvvəl qrammatik şəkilçi qəbul etmir.

**7.** Təsriflənməyən feillərlə bağlı **uyğunluğu** müəyyən edin.

a. Məsdər
b. Feili sifət
c. feili bağlama

1. Cümlədə yalnız zərflik olub hərəkəti müxtəlif cəhətdən izah edir.
2. İkili xüsusiyyət daşıyıb əsas vəzifəsi mübtəda və tamamlıq olmaqdır.
3. Cümlədə təyin olub isimlərdən öncə gəlir.
4. Şəxsə kəmiyyətə və zamana görə dəyişir.
5. Tərkibindəki bütün şəkilçilər zaman məzmunu daşıyan şəkilçilərdir.

A) a–2,3; b–1,4; c–5. B) a–3; b–5; c–1,2.
C) a–4; b–1,5; c–2,3. D) a–2; b–3,5; c–1.
E) a–2,4; b–3,5; c–1.

mhm tədris mərkəzi

## Cümlənin baş üzvləri
## Sınaq 15.

**1.**Mürəkkəb mübtədası feili sifət tərkibi ilə ifadə olunan cümləni seçin.
A) Dərslərini yaxşı oxuyanlara mükafat verdilər.
B) Səhər yuxudan duran kimi anamı çarpayımın yanında gördüm.
C) Kömək edənlər xüsusi təşəkkür hədiyyəsi almalıdır.
D) İşində məsuliyyətli olanlar hər zaman uğur qazanır.
E) Gələnlər gedənlərin yerində əyləşdirilsin.

**2.** İsmi xəbərli cümlələri müəyyən edin.
1. Onun yeganə məqsədi istədiyi nəticəni əldə etməkdir.
2. Sevincindən yerə göyə sığmayan Mehri bu xəbəri ailəsinə vermək üçün tələsirdi.
3. Bizim bu işdə sizinlə çalışmağımız mümkündür.
4. Bugünkü qonaqlarımız yarışda birinci yerə laiq görülənlərdir.
5. Atam böyük qardaşımı yanına çağırıb qulağına nə isə pıçıldadı.
A) 1,3,5 B) 1,2,3 C) 1,3,4 D) 2,4,5 E) 2,3,5

**3.** **"***Vətənin hər zaman müdafiəsi uğrunda canını qoyan oğullarını düşünmək vətənin də, vətəndaşların da borcudur".* Cümləsinin mübtədası nə ilə ifadə olunub?
A) Məsdərlə
B) Üçüncü növ təyini söz birləşməsi ilə
C) Feili sifət tərkibi ilə
D) İsmi birləşmə ilə
E) Məsdər tərkibi ilə

**4.** Xəbərə aid əlamətlərdən biri **uyğunsuzluq** yaradır.

| | | |
|---|---|---|
| A) | Təsriflənən feillər mürəkkəb xəbər ola bilir. | Yanlış |
| B) | İfadə vasitələrinə görə ismi və feili olur. | Doğru |
| C) | Təsriflənməyən feillərin hamısı ismi xəbər ola bilmir. | Doğru |
| D) | Predikatlar heç bir suala cavab vermədən feili xəbər olur. | Yanlış |
| E) | Mübtəda ilə hər zaman şəxsə və kəmiyyətə görə uzlaşır. | Doğru |

**5.**Mübtədası və xəbəri frazeoloji birləşmə ilə ifadə olunan variantı müəyyən edin.
A) Ağzına su alıb oturanlar bu məsələdə Eldara kömək etmədilər.
B) Mənim yaxın yerə yük daşımağım səni cin atına mindirməsin.
C) Hirsi başına vuranlar bu məsələyə görə pərişan olmuşdular.
D) Soyuqdan burnunun ucu göynəyən turalın topu yola düşdü.
E) İşə düşən Gülnazın gözləri yol çəkirdi.

**6.** Aşağıdakı cümlələrdən hansında mübtəda və xəbər arasında uzlaşma pozulduğu halda bu norma pozuntusu hesab edilmir.
A) Uşaqların çoxu baş verənlərə inana bilmirdi.
B) Qəzada yola aşan yük maşınındakı yük yerə səpələnmişdi.
C) Axşam səbirsizliklə analarının gəlişini gözləyən quzular tövlədə mələşirdilər.
D) Onun gözləri mənim xəyalımdan heç vaxt çıxmır.
E) İsti ölkələrə dəstə-dəstə köç edən durnalar mənzil başına çatanda çox xoşbəxt olur.

**7.** Aşağıdakı cümlələrdən hansında iki xəbərdən biri feilin şərt şəklindədir, digəri isə tərkibi feil deyil?
A) Nənəm bizə gəlsə, mən ona kömək edəcəyəm.
B) Əgər Vahid bunları bilirsə, demək, o bu cinayəti özü edib.
C) Malik dərslərini yaxşı oxusa, iki il sonra Kanadada olacaq.
D) Körpə yuxudan tez-tez ayılırsa, anası onun dərdini bilməlidir.
E) Məşədi İbrahim bura gəlsə, babamla birgə namaz qılacaq.

**8.** Mübtədası isimdən düzələn feillə ifadə olunmuş cümləni müəyyən edin.
A) Onun ən sevdiyi idman növü olan qaçış hər zaman qəlbində həyəcan yaradırdı.
B) Oxuyanlar mahnını dayandırıb səhnəni professora verdilər.
C) Əkin gecikmiş, səpin aparılmamışdı.
D) Oğlum, salamlaşmaq sənin tərbiyənin göstəricisidir.
E) Ağlağan uşaqlar Fərhadı indi daha çox düşündürürdü.

## Cümlənin şəxsə görə növləri, sintaktik əlaqələr
## Sınaq 18.

**1**. Hansı fikir **yanlışdır**?
A)Xəbəri III şəxsin cəmində olan bütün cümlələr qeyri-müəyyən şəxsli cümlələrdir.
B)Ümumi şəxsli cümlələr yalnız feili xəbərli olur.
C)Söz-cümlələrdə xitab işlənə bilər.
D)Adlıq cümlələrdən yazılı ədəbi dildə bədii və publisistik əsərlərdə istifadə olunur.
E)Söz-cümlələr çox vaxt dialoqda sual cümlələrinin cavabı kimi işlənir.

**2.** Verilən xüsusiyyətlər hansı sadə cümlə növünə aid edilə bilər?
1.Mübtədası olmasa da, təxmin oluna bilər.
2.Xəbəri həmişə III şəxsin cəmində olur.
3.Çox vaxt "elə bil", "sanki", "deyəsən" tipli modal sözlərdən istifadə olunur.
A) Şəxsiz cümlə
B) Adlıq cümlə
C) Qeyri-müəyyən şəxsli cümlə
D) Müəyyən şəxsli cümlə
E) Ümumi şəxsli cümlə

**3**. **Uyğunsuzluğu** müəyyən edin:
A)"Dərsə gecikməz olmaz"→şəxsiz cümlə
B)"İmtahana vaxtında gələrlər"→ümumişəxsli cümlə
C)"Sən gərək yüz ölçüb bir biçəsən"→müəyyən şəxsli cümlə
D)"Hər yerdə səni duyuram"→müəyyən şəxsli cümlə
E)"İlin sonu.Dekabr ayı.Sazaqlı bir qış axşamı"→adlıq cümlə

**4.** Tərkibində ara söz işlənmiş qeyri-müəyyən şəxsli cümləni müəyyən edin.
A) Deyəsən, söylədiklərim sizə tam aydın olmadı.
B) Elə danışırsan ki, sanki kiçik dağları sən yaratmısan.
C) Onlar, deyəsən, dəvətimi yerə salıb məclisimə gəlməyiblər.
D) Guya müəllimlər evə heç bir tapşırıq verməyiblər.
E) Elə bil yenicə doğulmuşdular, yenicə sevinirdilər, yenicə nəfəs alırdılar.

**5** .Söz-cümlə kimi işlənə **bilər**.
1.Axı, düzü, lap.
2. Kimi, hətta, sözsüz.
3.Elə bil, deyəsən, guya.
4.Bəli, xeyr, əsla.
5.Əlbəttə, sözsüz, bəlkə də.
A) 1, 4, 5 B) 2, 4 C) 2, 4, 5 D) 4, 5 E) 1, 3, 5

**6**. Xəbəri qarşılıq-birgəlik növdə olan qeyri-müəyyən şəxsli cümləni müəyyən edin.
A) Müharibədə birlikdə döyüşmüşdük.
B) Yoxluğuna çoxdan öyrəşmişdilər.
C) Meydanda rəqib komandalar görüşdülər.
D) Bir payız axşamı Bakı küçələrində xeyli gəzişdilər.
E) Soyuq qış axşamı ocağın ətrafında isinişdilər.

**7**. **Düzgün** bəndi müəyyən edin.

| **"Zər qədrini zərgər bilər"** | |
|---|---|
| A) Ümumi şəxsli cümlə | Geniş |
| B) Müəyyən şəxsli cümlə | Geniş |
| C) Şəxsiz cümlə | Müxtəsər |
| D) Ümumi şəxsli cümlə | Müxtəsər |
| E) Qeyri-müəyyən şəxsli cümlə | Müxtəsər |

**8**. Mübtədası buraxılan müəyyən şəxsli cümlələri seçin.
1.Xavərə yaman yazığım gəlir.
2.Vətən yolunda canından keçənlər tariximizin ən şanlı səhifələrində yer alırlar.
3.Uşaqlar, keçdiyimiz mövzuları təkrar etməyi unutmayın.
4.Kimlər imtahana yaxşı hazırlaşır ?
5.Müharibədən sonra həm qürurlandıq, həm də sönən ocaqları görəndə bir o qədər də kədərləndik.
A) 1, 3, 5 B) 2, 3, 5 C) 3, 4 D) 3, 5 E) 3, 4, 5

**9.** Biri ümumi şəxsli cümlə **deyil**.
A) Cücəni payızda sayarlar.
B) Həmişə böyük danışanda kiçik susar.
C) Saxla samanı, gələr zamanı.
D) Dərsə vaxtında gələrlər.
E) Yüz ölç, bir biç.

## Ümumi sınaq
## Sınaq 27.

**1.**Aşağıdakı cümlələrdən hansında uzlaşma əlaqəsi pozulsa da, norma pozuntusu **yoxdur?**
A)Qarğalar hər səhər qoca palıdın üstündə qarıldayır.
B)Onun laqeyidliyindən ürəyim soyuyur, baxışlarım kövrəlirlər.
C)Ulduzlar boylanır hər axşam pəncərəmizdən.
D)Günəşin sarı saçları açıq mavi səmanı gözəlləşdirirdi.
E)Ruhuma pay verir ana duası.

**2. Uyğunsuzluğu** müəyyən edin.

| | | |
|---|---|---|
| Hər zaman | A) | İkinci növ təyini söz birləşmələri bir cümlə üzvü olur. |
| | B) | Feili bağlama tərkibləri müstəqil şəkildə zərflik olur. |
| | C) | Rus avropa mənşəli sözlərdə “o” saiti [a] kimi tələffüz olunur. |
| | D) | Sinonimlər eyni nitq hissəsinə aid olur. |
| | E) | Təsriflənən feillər yalnız feili xəbər olur. |

**3.**Aşağıdakı cümlələrdən hansında daha çox fərqli nitq hissəsinə aid söz **işlənib?**
A) Dağlardan, dərələrdən, düzlərdən, yamaclardan, sərin sulu yaylaqlardan və saf qəlblərdən sizə salamım var.
B) Nə mənim onunla danışmağa həvəsim var, nə də onun bu məsələni həll etməyə şücaəti, amma könül istərdi ki, belə olmasın.
C)Birinci sinifə qəbul prosesi davam edən bu günlərdə laqeyd valideyinlər hələ də övladlarına məktəb seçməyiblər.
D)Azərbaycanın ərazi bütövlüyünü qoruyan qəhrəman əsgəri, rəşadətli xalqı və yenilməz ordusu vardır.
E)Sənin şirin nəğmələrin ilə buranın ahəngi birləşəndə elə bil qəlbim heyrətlə onu alqışlayır.

**4.Düzgün yazılmamış** sözü müəyyən edin.
A)Açıq-qırmızı B)Kəmşirin C)Ala-yarımçıq
D)Düm-ağ E)Az mavi

**5.**Aşağıdakı cümlələrdən hansında çağırış nidasından sonra vergül işarəsi qoyula da bilər qoyulmaya da bilər(vergüllər məqsədli şəkildə buraxılıb)
1.Ay Sabir, sən ona niyə diqqətlə baxırsan?
2.Hey Vəli, bu dağların zirvəsi həmişə qarlı olur.
3.Hay Həsən kişi buradan uzaqlaşan bir atlı gördünmü?
4.Ey Mələk, bir dəqiqəlik uşaqlara baxa bilərsənmi?
5.A bala, sənə “orda oynama” demədimmi?
A)2,4,5 B)2,4 C)1,3,5 D)1,2,4 E)2,3

**6. Uyğunluğu** müəyyən edin.
a.Qeyri-müəyyən əvəzliklər
b.Şəxs əvəzliklər
c.İşarə əvəzliklər
1.Quruluşca sadə, düzəltmə, mürəkkəb olur.
2.Mənsubiyyətə görə dəyişmir
3.Cümlədə əsasən sifəti əvəz edib təyin olur.
4.Bəziləri yiyəlik hal şəkilçisini fərqli formada qəbul edir.
5.Əşyanı ümumi şəkildə izah edir.
A) a–1; b–2,4; c–3 B) a–2,3; b–1; c–4,5
C) a–3; b–2,3; c–5 D) a–1,4; b–2; c–3
E) a–1; b–2,4; c–3,5

**7.** Yazı haqqında **yanlış** fikri seçin.
A) Yazı səsli dilin norma ilə qavrayışını təmin edən işarələr sistemidir.
B) Yazının ən mükəmməl və çevik forması fonoqrafik yazıdır.
C) Türklərə məxsus Orxon-Yenisey abidəsi hərfi yazıya nümunədir.
D) İdeoqrafik yazı piktoqrafik yazıdan daha öncə yaranmışdır.
E) Nəqliyyat yolunda qoyulmuş nida işarəsi fikri yazı nümunəsidir.

**26.** Mətnə əsasən cədvəli tamamlayın.

| Səbəb | Nəticə |
|---|---|
| Buludlar küləyin vasitəsilə böyük məsafələrə yayılır. | |
| | Gecə vaxtı Günəşin batdığı və ya doğduğu anda buludlar gümüşü rəngdə bərq vurur. |
| Nəm hava kütləsi yuxarı çıxır və burada hava genişlənir, heç bir istilik mübadiləsi baş vermir. | |

**27.** Mətnin birinci abzasında bir-birini təkzib edən cümlələri müəyyən edib yazın.

______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________

**28.** Mətnə əsasən laylı buludlara aid fikirləri yazın.

______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________

**29.** Mətndə altından xətt çəkilmiş sözlərə əsasən cədvəli tamamlayın.

| Altından xətt çəkilmiş söz | Həmin sözlərin qarşılığı |
|---|---|
| | |
| | |
| | |
| | |

**30.** Mətndə çərçivədə verilmiş sözün mənasını qeyd edin və cümlədə işlədin.

______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________